**Etik davranış məsələləri ilə bağlı 2024-cü il üzrə məlumat**

Dövlət Miqrasiya Xidməti tərəfindən miqrasiya orqanlarının fəaliyyətində şəffaflığın və səmərəliliyin artırılması, vətəndaş məmnunluğunun təmin edilməsi, miqrasiya orqanlarının nüfuzunun artırılması və işçilər tərəfindən etik davranış qaydalarına əməl olunmasının təmin edilməsi istiqamətində tədbirlər 2024-cü il ərzində də davam etdirilmişdir.

Miqrasiya orqanlarında etik davranış qaydalarının tətbiqi, bu sahədə maarifləndirmə və mübahisələrin həlli, o cümlədən etik davranış qaydalarına əməl olunmasına nəzarət məqsədilə Dövlət Miqrasiya Xidməti rəisinin müvafiq əmri ilə “Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin etik məsələləri ilə bağlı 2024-cü il üzrə Tədbirlər planı” təsdiq edilmiş və həmin Tədbirlər planında öz əksini tapmış tədbirlərin icrası təmin olunmuşdur.

Hesabat dövründə ümumilikdə etik davranış üzrə 12 halda 164 işçi, daxili intizam qaydaları üzrə 3 halda 215 işçi təlimlərə cəlb edilmişdir. Bu müddət ərzində miqrasiya orqanlarında işə yeni qəbul olunmuş işçilərə 7 halda “Etik davranış qaydaları və maraqların toqquşmasının qarşısının alınması” mövzularında təlimlər keçirilmişdir. Həyata keçirilən təlimlərdə ümumilikdə 38 nəfər iştirak etmişdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qeyri-hökumət təşkilatı olan “Konstitusiya Araşdırmalar Fondu” tərəfindən Xidmətin 33 işçisi üçün 2024-cü ilin 3 may tarixində etik davranış məsələləri, korrupsiyaya qarşı mübarizə və maraqların toqquşmasının qarşısının alınması istiqamətində təlim keçirilmişdir.

Həmçinin “Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması” İctimai Birliyi tərəfindən Xidmətin 22 işçisi üçün 2024-cü ilin 20 sentyabr tarixində “Miqrasiya proseslərinin effektiv idarə olunması sahəsində korrupsiya ilə mübarizə və etik davranış” mövzusunda seminar keçirilmişdir.

Keçirilmiş təlimlərdə korrupsiyanın hüquqi və iqtisadi anlayışları, növləri, yaratdığı fəsadlar, korrupsiyaya qarşı mübarizə sahəsində qəbul edilmiş qanunvericilik aktları, korrupsiyanın qarşısının alınması ilə bağlı tədbirlər, korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektləri və hüquqpozmalara görə məsuliyyət, hüquqpozmaların nəticələrinin aradan qaldırılması və digər məsələlər barədə iştirakçılara ətraflı məlumat verilmişdir.

Hesabat ilində miqrasiya orqanı işçilərinin qulluq etikasının normalarına riayət etmələri vəziyyəti müntəzəm olaraq təhlil edilmiş və nəticəsindən asılı olaraq müvafiq tədbirlər görülmüşdür.

Miqrasiya orqanlarında etik davranış qaydalarına ciddi riayət edilməsi istiqamətində tədbirlər davam etdirilir.